## “QIZIL ÇARX” MÜKAFATLARI SAHİBLƏRİNƏ TƏQDİM EDİLDİ

*Mükafat UBCCE-nin yaradılmasında əməyi olan şəxslərə verildi*

17 aprel 2008-ci ildə Azərbaycan Türkiyə İş Adamları Birilyinin (ATİB) yaranmasından dörd il keçməsi münasibətilə Azərbaycan Dövlət Filarmoniyasında “Qızıl Çarx” mükafatının təqdimetmə mərasimi keçirilib.

Hər il ənənəvi olaraq ATİB özünün ad günü olan aprelin 17-də Azərbaycan və Türkiyə arasında münasibətlərin inkişaf etdirilməsi və iki ölkənin regional nüfuzunun artmasına ən çox töhfə verən hadisə üzrə “Qızıl Çarx” mükafatlarını təqdim edir.

ATİB İdarə Heyətinin qərarı ilə 2007-cı ildə regionda iqtisadi əməkdaşlığın güclənməsinə ən böyük töhfə verən hadisə kimi Qara dəniz və Xəzər dənizi Sahibkarlar Konfederasiyaları Birliyi (UBCCE) müəyyən edilib. Bu təşkilatının yaradılmasının ilin hadisəsi kimi seçilməsinə təsir edən digər önəmli bir səbəb UBCCE-nin regionda qeyri-hökumət təşkilatları tərəfindən yaradılan ilk qurum olmasıdır. Təşkilat haqqında əlavə informasiya üçün www.ubcce.org internet saytına müraciət edə bilərsiniz.

ATİB İdarə Heyəti bu münasibətlə dörd nominasiyada – “İlin Dövlət Adamı”, “İlin Qeyri-Hökumət Təşkilatı”, “İlin İş Adamı və ya Şirkəti” və “İlin Elm Adamı və ya Sənət Adamı” nominasiyaları üzrə mükafatların verilməsi barədə qərar qəbul edib. Eyni zamanda, məxsusi olaraq bu hadisə üçün “Xüsusi Təşəkkür Mükafatı” təsis edilib.

Türkiyə Respublikasının Dövlət naziri Kürşat Tüzmen UBCCE-nin qurulmasında verdiyi hərtərəfli dəstəyə görə, “İlin Dövlət Adamı” nominasiyasında mükafata layiq görülüb.



“İlin İş Adamı” nominasiyası üzrə mükafata TÜSİAD Prezidenti olarkən UBCCE-nin yaradılmasına verdiyi dəstəyə görə Ömər Sabançı (Sabançı Holdinq Müşahidə Şurasının üzvü) layiq görülüb.



İdarə Heyətinin qərarı ilə “İlin Qeyri-Hökumət Təşkilatı” nominasiyası üzrə mükafat UBCCE-nin yaradılması təşəbbüsünü öz üzərinə götürdüyünə və UBCCE Katibliyinin fəaliyyətini təmin etdiyinə görə Türkiyə Sənayeçi İş Adamları Dərnəyinə (TÜSİAD) verilib.



“İlin Şirkəti” nominasiyası üzrə mükafata UBCCE-nin 2007-ci ildə həyata keçirilən tədbirlərinə verdiyi dəstəyə görə “Azercell” BM layiq görülüb.

“İlin Elm Adamı” mükafatı UBCCE-nin təsis edilməsi üçün hazırlıq prosesinə rəhbərlik etdiyinə görə Dr. Haluk Tükelə təqdim edilmişdir.

UBCCE-nin yaradılması ideyasının gündəmə gəldiyi

ilk gündən etibarən bu layihəyə dəstəyini əsirgəməyən Azərbaycan Respublikasının İqtisadi inkişaf naziri Heydər Babayev "Xüsusi Təşəkkür Mükafatı"na layiq görülüb.



Mərasimin rəsmi hissəsi yekunlaşdıqdan sonra M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Üzeyir Hacıbəyov adına Dövlət Simfonik Orkestrinin çıxışı olmuşdur. Konsertin dirijoru əməkdar incəsənət xadimi Yalçın Adığözəlov, solist Bakı Musiqi Akademiyasının dosenti, əməkdar artist Murad Hüseynov tədbir iştirakçılarına Fikrət Əmirovun "Azərbaycan Kapriççiosu", Ferit Tüzünün "Söyleşi", Fikrət Əmirov və Elmira Nəzirovanın "Şərq temaları üzərində yazılmış orkestr və fortopiano üçün konsert", Motsartın "Türk marşı" əsərlərini təqdim ediblər.



Xatırladaq ki, "Qızıl Çarx" mükafatı üçüncü ildir ki, təqdim edilir. 2006-cı ildə təqdim edilən mükafat zamanı ilin hadisəsi kimi Bakı şəhərindən Şimali Kipr Türk Cümhuriyyətinə (ŞKTC) təşkil edilən birbaşa təyyarə reysi seçilmiş və "İlin Dövlət Adamı" mükafatı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə, "İlin İş Adamı" mükafatı cənab Füzuli Ələkbərova, "İlin Qeyri-Hökumət Təşkilatı" mükafatı ŞKTC-nin Sənaye Palatasına, "İlin Sənətçisi" mükafatı Azərinə təqdim edilmiş; 2007-cı ildə təqdim edilən mükafat zamanı ilin hadisəsi kimi BTC neft boru kəmərinin fəaliyyətə başlaması seçilmiş və "İlin Dövlət Adamı" mükafatı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev, Gürcüstan Respublikasının Prezidenti cənab Mixail Saakaşvili və Türkiyə Respublikasının Baş Naziri cənab Recep Tayyip Erdoğana, "İlin Qeyri-Hökumət Təşkilatı" mükafatı ABŞ Azərbaycan Ticarət Palatasına (USACC) və Mərmərə Fonduna, "İlin Şirkəti" mükafatı "BTC Co" və "BOTAŞ A.Ş." şirkətlərinə təqdim edilmiş, həmçinin Türkiyə Respublikasının 9-cu Prezidenti Süleyman Dəmirəl və ABŞ-ın 42-ci Prezidenti William Jefferson Clinton "Xüsusi Təşəkkür Mükafatı" ilə təltif edilmişlər.